Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 95 (23.006)

22 may 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin mayın 21-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Aleksandr Vuçiçi qarşılayıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə təkbətək görüşü olub.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər.

Mayın 21-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

2018-ci ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2018-ci ilin yanvar-aprel aylarında 711 milyon 398 min 700 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz artaraq 1570 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 322 milyon 695 min manat dəyərində məhsul istehsal edilmişdir. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala

286 milyon 580 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,5 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 269 milyon 855 min manatı və ya 94,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

Bu ilin yanvar-aprel aylarında 38 milyon 757 min 900 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 7821 tona, süd istehsalı isə 25 min 278 tona çatmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5 faiz, süd istehsalı isə 2 faiz artmışdır.

* * *

2018-ci ilin yanvar-aprel aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 16 milyon 740 min manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 13 milyon 584 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,7 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 18 milyon 186 min 800 manat məbləğində kreditlər verilmişdir. Bu da bir il öncəki göstəricidən 2,6 dəfə çoxdur. Həmin kreditlərin 1 milyon 836 min 100 manatı və yaxud 10,1 faizi qısamüddətli, 16 milyon 350 min 700 manatı və yaxud 89,9 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 376 növdə məhsul istehsal olunur ki, bunun

da 126 növü ərzaq, 250 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 may 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 69 min 757-yə çatmışdır ki, bunun da 60 min 823-ü və ya 87,2 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar-aprel aylarında açılmış 5131 bank hesabının 5063-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 may 2018-ci il tarixə 1266-ya çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2018-ci ilin yanvar-aprel aylarında 108 milyon 711 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 98 milyon 117 min 200 ABŞ dolları təşkil etmiş, 87 milyon 522 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2018-ci ilin yanvar-mart aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 421 manata çatmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

* * *

1 aprel 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3630 nəfər artaraq 453 min 461 nəfər olmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti

İməciliklər mütəşəkkilliklə davam etdirilir

Muxtar respublika sakinlərinin vətəndaşlıq borcuna çevrilən iməciliklər hesabına diyarımızda yaşıllıq sahələrinin həcmi dəfələrlə artırılıb, bu tədbirlərdə xeyli meyvə bağları, yaşıllıq zolaqları salınıb. Hər həftənin şənbə günləri davam etdirilən iməciliklərdə salınmış yaşıllıqlara qulluq edilir, müxtəlif aqrotexniki tədbirlər həyata keçirilir.

Mayın 19-da keçirilən növbəti şənbə iməciliklərində də əvvəlki dövrlərdə salınmış yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, suvarma işləri aparılıb. Belə ki, Naxçıvan şəhər sakinləri Uzunoba Su Anbarının aşağı hissəsində, həmçinin Dövlət Yol Polisi İdarəsinin yaxınlığındakı ərazidə yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Şərur rayonunda Kürkənddə yaşıllıq ərazilərində, həmçinin kənd qəbiristanlığında ağaclara aqrotexniki qulluq göstərilib, suvarma və ağartma işləri aparılıb.

Babəklilər Naxçıvan-Şahbuz magistral yolunun sağ və sol hissələrindəki yaşıllıqlarda ağacların dibləri alaq otlarından təmizləyib, ağartma işləri görüblər.

Ordubad rayonunda keçirilən iməciliklərdə isə Əylis düzündəki üzüm və qızılgül bağlarında, rayonun girişindən Ordubad şəhərinədək yol kənarlarında ərazilər alaq otlarından təmizlənib, ağaclar suvarılıb.

Culfa rayonunun sakinləri tərəfindən rayonun kənd yaşayış məntəqələrində ağaclara aqrotexniki qulluq göstərilib.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun Qıvraq qəsəbəsi hissəsində yaşıllıqlara qulluq edib, qəsəbədə məhəlləarası yollarda hamarlama işləri aparıb, rayon mərkəzindəki yol kənarlarına 50 ədəd gül kolu əkiblər.

Şahbuzlular Naxçıvan-Şahbuz-Batabat magistral yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq ediblər.

Naxçıvan-Sədərək magistral yolunun sağ hissəsində, Qaraağac kəndindəki 0,5 hektarlıq bağda, Heydərabad qəsəbəsində 1,5 hektarlıq bağda və qəsəbə tam orta məktəbinin həyətində ağacların dibləri alaq otlarından təmizlənib, yaşıllıqlar suvarılıb.

Həmin gün muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində yaşayan ahıl vətəndaşların həyətlərində də təmizlik işləri aparılıb.

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarının final mərhələsində muxtar respublika üzrə 41 şagird iştirak edib.

Fənn olimpiadalarının qalibləri mükafatlandırılıb

Həmin şagirdlərdən 24-ü yüksək nəticələr göstərib. Heydər Əliyev adına Hərbi Liseyin kursantı Elçin Abbasov və Kəngərli rayonunun Qıvraq qəsəbə tam orta məktəbinin şagirdi Elvariz Məmmədov qızıl medala layiq görülüblər. Digər 22 şagirddən 6-sı gümüş, 16-sı bürünc medal qazanıb.

Bununla əlaqədar Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov əldə edilən nailiyyətlərin muxtar respublikada təhsil sahəsinə göstərilən diqqət və qayğının bəhrəsi olduğunu deyib, qaliblərə yeni-yeni nailiyyətlər arzulayıb. Bütün bu uğurların qazanılmasında ümumtəhsil müəssisələrində çalışan peşəkar müəllimlərin əməyi olduğunu xüsusi qeyd edən nazir istedadlı şagirdlərin hazırlanmasında onlara daha böyük müvəffəqiyyətlər diləyib. Məmməd Qəribov şagirdləri, onların fənn müəllimlərini və valideynlərini təbrik edib, daha parlaq nəticələrin əldə olunması üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyini vurğulayıb.

Sonra qaliblərə medallar və muxtar respublika Təhsil Nazirliyinin diplomları təqdim edilib.

Xəbərlər şöbəsi

Naxçıvan inkişafa görə yenə də liderdir

Prezidentin qayğısı muxtar respublikanın hərtərəfli yüksəlişinin əsas zəminidir

"...Yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq".

Mayın 16-da Prezident kimi 14-cü dəfə Naxçıvana səfər edən cənab İlham Əliyev Müəllimlər İnstitutunun yeni binasının açılışında çox da uzaq olmayan zaman kəsiyini xatırlayaraq muxtar respublikanın keçmişi ilə bu günü arasında müqayisə apardı. Təxminən 26-27 il öncə Naxçıvanın yaşadığı çətin və ağrılı günlərlə bugünkü durumunu dəyərləndirən dövlət başçısının fikirləri hər kəsi qürurlandırdı. Çünki bir zamanlar şam, lampa işığına möhtac olan Naxçıvanda bu gün istehsal edilən elektrik enerjisi nəinki özünə bəs edəcək qədərdir, hətta ixracına da imkanı çatır.

Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan ağır illərdən şərəflə çıxa bilib

Muxtar respublikanın uğurlu inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərib. Prezident səfərində vurğuladı ki, 1990-cı illərin əvvəllərində ulu öndər çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilib: ***"Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar. O illərdə Naxçıvan üçün və ümumiyyətlə, Azərbaycan üçün həlledici məsələlər öz həllini tapmışdır. Ulu öndərin rəhbərliyi ilə Naxçıvan o ağır illərdən şərəflə çıxa bilmişdir".***

Naxçıvanda Sovet İttifaqının saxlanmasına dair referendum keçirilməyib

Tarixə bir daha ekskurs edən İlham Əliyev Azərbaycanın müstəqilliyinin əldə edilməsi prosesində Naxçıvanın çox böyük rolunun olduğunu söylədi. Bildirdi ki, məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq edib və Azərbaycan Ali Soveti qarşısında bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı vəsatət qaldırılıb. Ancaq o vaxt Azərbaycan rəhbərliyi buna imkan verməyib: ***"O vaxt Naxçıvan "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlanırdı və ulu öndərin təklifi ilə bu addan "sovet sosialist" sözləri çıxarıldı. Bu, sovet dövründə baş vermişdir. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, ulu öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində ulu öndərin və naxçıvanlıların çox böyük rolu vardır".***

üçün xüsusi rol oynayır.

Naxçıvana 14-cü səfər

Ulu öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirən İlham Əliyev Prezident kimi ilk dəfə Naxçıvana səfərini də xatırladı: ***"Bu səfər mənim Prezident kimi Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl – 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa, biz onu da edirik".***

nilən təxribatının qarşısını ala bilər, eyni zamanda uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir".

Tezliklə Naxçıvanda elə bir hadisə yaşanacaq ki...

Prezident həmçinin bildirdi ki, bu gün elektrik enerjisi ilə bağlı bütün problemləri həll olunan Naxçıvanda son illər 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra muxtar respublika öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək.

Bu, dünya miqyasında, bəlkə də, yeganə belə bir hal olacaq: ***"Bu gün Naxçıvan elektrik enerjisini ixrac edə bilər. Şadam ki, o cümlədən günəş elektrik stansiyası tikilib, su elektrik stansiyaları tikilir və Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır. Naxçıvanın əhalisi artır, sənaye istehsalı bundan sonra da artacaq. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik".***

"Şimal-Cənub" nəqliyyat dəhlizi Naxçıvanı blokadadan çıxaracaq

Azərbaycanın hazırda "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğul olduğunu da diqqətə çatdıran İlham Əliyev bildirdi ki, ölkə ərazisində bu layihə ilə bağlı bütün işlər görülüb. Gələcək üç il ərzində layihənin tam istifadəyə verilməsi gözlənilir: ***"Planımız bundan ibarətdir. Belə olan halda Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaqdır".***

Yəni bu mühüm işlərin görülməsi Naxçıvanın çox böyük potensialının olduğunu bir daha təsdiqləyir. Həqiqətən də, dövlət başçısının qayğısı ilə burada görülən işlər yüksək qiymətə layiqdir.

55 milyon manatlıq yeni dövlət dəstəyi

Dövlət başçısı Naxçıvana səfəri çərçivəsində 4 yeni obyektin açılışında iştirak etdi. Eyni zamanda Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsindəki sərhəd dəstəsində və Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Səfərdən sonra Prezident Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi (5 milyon manat), sosial-iqtisadi inkişafın sürətləndirilməsi (10 milyon manat), Ordubad Su Elektrik Stansiyasının (10 milyon manat) və Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi (30 milyon manat) ilə bağlı əlavə tədbirlərin davam etdirilməsi üçün 4 sərəncam imzalayıb. Bu sərəncamlarda nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün, ümumilikdə, 55 milyon manat vəsait ayrılıb.





Dünya miqyasında rekord göstərici

Naxçıvanın son illərdəki uğurlarından söz açan İlham Əliyev qeyd etdi ki, muxtar respublika bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edir. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıb. Bu, həqiqətən, dünya miqyasında rekord göstəricidir.

Həqiqətən, bu gün Naxçıvanda böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Muxtar respublikanın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının istəyinə bağlı olan məsələdir. Çünki Naxçıvan tarixi diyarımız, qədim Azərbaycan torpağıdır. Burada yerləşən abidələr Azərbaycanın zəngin tarixini və xalqın istedadını göstərir. Bununla yanaşı, Naxçıvan strateji yerdə yerləşir və ölkəmizin təhlükəsizliyi, inkişafı



Prezident vurğuladı ki, bu illər ərzində, ilk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Muxtar respublika düşmənlə üz-üzə dayandığı üçün, əlbəttə ki, ilk növbədə, uğurlu inkişaf üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Bu səbəbdən də Naxçıvanın hərbi potensialının güclən-

Bütün yeni infrastruktur Naxçıvanın güclü potensialını təmin edir

Prezident bildirdi ki, Naxçıvanın qazlaşdırılması ilə bağlı məsələlər öz həllini tapıb, qazlaşdırma 100 faiz təmin edilib, içməli su layihələri uğurla icra edilir və yeni avtomobil yolları salınır. Əlbəttə ki, bütün bunlar Naxçıvanın uğurla, sürətlə inkişaf etməsinə real zəmin yaradır. Dövlət başçısının söylədiyi kimi, yəni bütün bu infrastruktur artıq Naxçıvanın güclü potensialını təmin edir.

Bununla yanaşı, iqtisadiyyatın real sektorunun inkişafına da böyük diqqət göstərilir. Sənaye müəssisələri yaradılır, ixrac imkanları artır, kənd təsərrüfatı uğurla inkişaf edir. Naxçıvan özünü taxılla təmin edir. Qəbul edilmiş son qərarlar kənd təsərrüfatının inkişafına daha da böyük təkan verəcək.

Rəşad BAXŞƏLİYEV
"Azərbaycan" qəzeti,
18 may 2018-ci il



Mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili diqqət mərkəzindədir

Mayın 19-da Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyətləri barədə çıxış edərək demişdir ki, dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətləri üçün lazımi şərait yaradılmış, əməkdaşlar iş otaqları, avadanlıqlar və sürətli internetlə təmin olunmuşlar. Həmçinin mərkəzi icra hakimiyyəti orqanlarının internet saytları istifadəyə verilmişdir ki, bu da işin daha səmərəli təşkilinə imkan yaradır. Lakin bəzi mətbuat xidmətləri fəaliyyətlərini yaradılan şəraitə uyğun qura bilməmiş, mərkəzi icra hakimiyyəti orqanları kütləvi informasiya vasitələrində informasiya-məlumatlandırma işini lazımi səviyyədə təşkil etməmişlər. Hazırda muxtar respublikanın 32 mərkəzi icra hakimiyyəti orqanında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifəsi vardır. Onlardan 11-də – Nazirlər Kabinetində, Daxili İşlər Nazirliyində, Vergilər Nazirliyində, Fövqəladə Hallar Nazirliyində, Nəqliyyat Nazirliyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, Gənclər və İdman Nazirliyində, Rabitə və Yeni Texnologiyalar Nazirliyində, Dövlət Energetika Xidmətində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatında və "Naxçıvanqaz" İstehsalat Birliyində mətbuat xidmətləri vəzifələri vakantdır.

Mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri tərəfindən təqdim edilən materiallar təhlil edilmişdir. Aydın olmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət, Səhiyyə və İqtisadiyyat nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidmətləri fəaliyyətlərini muxtar respublikanın kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində qurmuşlar. Adıçəkilən dövlət qurumlarının mətbuat xidmətləri tərəfindən qəzet və televiziyalara peşəkar arayış və hesabatlar təqdim edilir, müsahibələr verilir, həmin əməkdaşlar təşkilatın fəaliyyəti barədə veriliş və məqalələrin hazırlanmasında yaxından iştirak edirlər.

Muxtar respublikanın digər mərkəzi icra hakimiyyəti orqanlarının – Ali Məhkəmənin, Maliyyə Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Təhsil Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Ali Məclisin Sədri Yanında Dövlət Qulluğu üzrə Komissiyanın, Dövlət Sosial Müdafiə Fondunun, Mərkəzi Seçki Komissiyasının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidmətləri isə fəaliyyətlərini kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində qura bilmirlər. Görülən işlər haqqında teleradio və qəzetlərdə, eləcə də təşkilatların öz internet saytlarında operativ məlumatlar verilmir. Bunun əsas səbəbi bəzi orqanlarda mətbuat xidmətləri vəzifələrinin vakant olması, bəzi orqanlarda isə bu vəzifəni tutan şəxslərin qeyri-peşəkar fəaliyyətləridir.

2017-ci ildə və 2018-ci ilin ötən dövründə mərkəzi icra hakimiyyətlərinin mətbuat xidmətləri tərəfindən "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, ümumilikdə, 1538 material təqdim edilmişdir ki, onun da 815-i və ya 52 faizi Naxçıvan Muxtar Respublikasının Mədəniyyət, Səhiyyə və İqtisadiyyat nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, yəni 7 orqanın mətbuat xidmətlərinin payına düşür. Mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçiləri və digər əməkdaşları teleradiolarda 2097 verilişin hazırlanmasında iştirak və çıxış etmişlər ki, onlardan da 1196-sı və ya 57 faizi Naxçıvan Muxtar Respublikasının Mədəniyyət, Səhiyyə və İqtisadiyyat nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidmətlərinin payına düşür.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni texnologiyaların tətbiqi və sürətli internetə çıxış imkanlarının yaradılması, mərkəzi icra hakimiyyəti orqanlarının internet səhifələrinin hazırlanaraq qlobal şəbəkədə yerləşdirilməsi informasiya-məlumatlandırma işini müasir dövrün tələblərinə uyğun təşkil etməyə imkan verir. Lakin mərkəzi icra hakimiyyəti orqanlarının internet saytlarının monitorinqi aparılarkən aydın oldu ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Ali Məhkəmənin, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Statistika Komitəsinin, Ali Məclisin Sədri Yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və Dövlət Miqrasiya Xidmətinin saytlarından başqa, digər 25 dövlət orqanının internet saytlarında məlumat və informasiyaların yerləşdirilməsi üçün ayrıca bölmələr yoxdur. Bu səbəbdən də həmin internet saytları mütəmadi yenilənmir və informasiya yükü artırılmır, həmin orqanların fəaliyyəti haqqında saytlarda heç bir məlumat verilmir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin aparat rəhbəri Həbib Rzayev "İnformasiya əldə etmək haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunlarına əsasən ictimaiyyətə açıq olan informasiyalar və dövlət sirri hesab edilən məlumatlar haqqında məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov çıxış edərək demişdir ki, 2005-ci il mayın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə mərkəzi icra hakimiyyəti orqanlarında "mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi" ştatı təsis olunmuş, orqanların mətbuat və ictimaiyyətlə əlaqələr üzrə fəaliyyətlərinin təşkili bu sahələr üzrə məsul əməkdaşlara həvalə edilmişdir. Bununla yanaşı, ictimaiyyətin vaxtında və düzgün məlumatlandırılması işi də diqqətdə saxlanmış, mərkəzi icra hakimiyyəti orqanlarının rəsmi internet saytları yaradılmışdır.

Lakin muxtar respublikanın bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri informasiya siyasətini düzgün qura bilmirlər. Əksər mərkəzi icra hakimiyyəti orqanları mətbuatla işə səthi yanaşırlar. Araşdırmalar zamanı məlum olub ki, mətbuat xidmətlərində çalışan əməkdaşların böyük bir qismi qeyri-peşəkardırlar. Digər nöqsan isə orqanların rəhbərləri tərəfindən mətbuat xidmətlərinin fəaliyyətinin ikinci plana keçirilməsi və tələbkarlığın istənilən səviyyədə olmamasıdır.

Ali Məclis Sədrinin tapşırıqlarını çatdıran Aparat rəhbəri demişdir ki, mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçiləri fəaliyyətlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi ilə uzlaşdırmalıdır. Mətbuatla əlaqələr üzrə məsul şəxslər mövcud qanunvericiliyi öyrənməli və fəaliyyətlərini bu istiqamətdə qurmalıdırlar. Dövlət Qulluğu Məsələləri üzrə Komissiya test mərhələsindən sonra mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifəyə namizədlərin peşə vərdişinin yoxlanmasını (esse imtahanı) təşkil etməli, yaradıcılıq qabiliyyəti olan əməkdaşlar işə qəbul olunmalıdırlar. Haliyədə fəaliyyət göstərən mətbuat xidmətlərinin əməkdaşlarının isə bir ay ərzində attestasiyası aparılmalıdır. Komissiya Ali Məclis Aparatının aid şöbəsi ilə birlikdə orqanların mətbuat xidmətləri əməkdaşlarının peşə vərdişlərinin təkmilləşdirilməsi üçün mütəxəssislərin iştirakı ilə seminar və kurslar keçirməlidir.

Dövlət orqanlarının internet saytlarının texniki imkanları və informasiya yükü artırılmalı, onlarda "Mətbuat xidməti" bölməsi yaradılmalıdır. Ali Məclis Aparatının aid şöbəsi orqanların mətbuat xidmətlərinin fəaliyyətlərini təhlil etməli, aylıq və rüblük arayışlar hazırlamalı, aid orqanların aparat rəhbərləri ilə birlikdə müzakirələr təşkil etməli, nöqsanlar aradan qaldırılmalıdır. Kütləvi informasiya vasitələrinə məlumatlar təqdim edilərkən dövlət orqanlarının fəaliyyət istiqamətinə uyğun açıq informasiyaların verilməsi əsas götürülməli, Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılan və ya dövlət sirri hesab edilən informasiyaların ictimailəşdirilməsinin qarşısı alınmalıdır.

Tədbirdə işini düzgün qura bilməyən dövlət orqanlarının mətbuat xidmətlərinin əməkdaşlarına – Ali Məhkəmənin, Maliyyə Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Təhsil Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Ali Məclisin Sədri Yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Sosial Müdafiə Fondunun, Mərkəzi Seçki Komissiyasının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçilərinə xəbərdarlıq edilmiş və 3 ay vaxt verilmişdir. Ali Məclisin Sədri Yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya isə tapşırılmışdır ki, növbəti imtahan vaxtını gözləmədən dövlət orqanlarındakı vakant mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinə qəbulla bağlı elan versin və imtahan keçirsin.

Həmçinin vurğulanmışdır ki, muxtar respublikanın kütləvi informasiya vasitələri ilə dövlət orqanlarının mətbuat xidmətlərinin qarşılıqlı əməkdaşlığına nail olunmalıdır. Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi və dövlət orqanlarının aparat rəhbərləri mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili üçün məsuliyyət daşıyırlar. Onlar işlərində dönüş yaratmalı, fəaliyyətlərini muxtar respublika rəhbərinin verdiyi tapşırıqların icrası istiqamətində qurmalıdırlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin ***www.din.nmr.az***, Dövlət Gömrük Komitəsinin ***www.dgk.nmr.az***, Dövlət Statistika Komitəsinin ***www.statistika.nmr.az*** və Dövlət Miqrasiya Xidmətinin ***www.miqrasiya.nakhchivan.az*** saytları nümunə kimi təqdim edilmişdir.

Sonda tədbir iştirakçılarına mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisinin vəzifələri barədə hazırlanmış kitabça təqdim edilmişdir.

"Şərq qapısı"

Təhsil millətin gələcəyidir

Nümunəvi dərslərin keçilməsi təhsilin inkişafına öz töhfəsini verir

Naxçıvan Muxtar Respublikasında təhsilin hərtərəfli inkişafı üçün sistemli tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlər ölkəmizin intellektual gələcəyinə hesablanmış məqsədyönlü dövlət proqramlarının ana xəttini təşkil edir. Bu baxımdan "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli Sərəncamı da böyük əhəmiyyət daşıyır.

Sərəncama əsasən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində nümunəvi dərslər təşkil edilir. Hər pedaqoq-alimin ayda bir dəfə belə nümunəvi dərs keçməsi elmi dərəcəsi olan müəllimlərlə orta təhsil müəssisələri arasındakı əlaqələri gücləndirir, eyni zamanda şagirdlərdə tədris olunacaq fənlərə yeni yanaşma tərzi aşılayır, onların gələcək peşə seçimlərində düzgün qərar vermələrinə müsbət təsir göstərir. Sərəncamdan irəli gələn vəzifələrin icrasına uyğun olaraq müxtəlif ixtisaslar üzrə elmi dərəcəyə malik kadrların məhz vaxtilə təhsil aldıqları, məzunu olduqları ümumtəhsil məktəblərində tədrisə cəlb edilmələri isə müəllim-şagird kontingentində doğmalıq hissi ilə yanaşı, tədris mühitində yeni ab-havanın yaranmasına da öz təsirini göstərir. Keçilən bu cür dərsləri izləmək marağı yaxın günlərdə bizi də belə bir dərsin iştirakçısına çevirdi. Belə ki, bir neçə gün bundan əvvəl Kəngərli rayon Qarabağlar kənd 2 nömrəli tam orta məktəbdə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Dilçilik şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıl tərəfindən aparılan "Ana dilinin saflığı" mövzusunda nümunəvi dərsdə iştirak etdik.

Qeyd edək ki, X sinif şagirdlərinin iştirak etdiyi dərsdə mövzu hamı üçün maraqlı idi. Hər kəs ana dilimizlə bağlı deyilənlərə diqqətlə qulaq asır, müəllimin suallarına dolğun cavab verirdi. Diqqətçəkən əsas məqam isə şagirdlərin müəllimə daha çox sual ünvanlamaları idi. Yəqin ki, bu da onların çox öyrənmək istəyindən irəli gəlirdi. Məktəblilərin dərsboyu fəallıq göstərməsi, sinifdə müəllim və şagirdlər arasında fikir mübadiləsinin aparılması keçilən dərsin, həqiqətən, nümunəvi olmasından xəbər verirdi.

Dərsdən sonra Zülfiyyə İsmayıl bizimlə söhbətində bildirdi ki, bu gün muxtar respublikamızda təhsilin keyfiyyətinin yaxşılaşdırılması, kadr hazırlığının gücləndirilməsi, müəllim peşəsinin nüfuzunun artırılması, onun karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması dövlət siyasətinin əsas prioritetinə çevrilib. Bu sahədə görülən işlərin tərkib hissəsi kimi nümunəvi dərslərin aparılması həm şagirdlər, həm orta məktəb müəllimləri, elmi dərəcəli mütəxəssislər üçün çox faydalıdır. Orta məktəblərdə belə dərslərin təşkili yeni, əhəmiyyətli və davamlı bir tədbir olmaqla, bütövlükdə, təhsildəki sistematikliyin, ardıcıllığın möhkəmlənməsi, qarşılıqlı əlaqələrin, təcrübə mübadiləsinin daha da dərinləşməsi, yeni nəsillərin hərtərəfli hazırlığına şərait yaradır.

Zülfiyyə İsmayıl onu da qeyd etdi ki, məktəbin həm pedaqoji heyəti, həm də şagirdlər nümunəvi dərslərə böyük maraq göstərirlər. Biz də şagirdləri yeni elmi uğurlardan xəbərdar etməklə yanaşı, həm də onlarda Vətənimizə, milli dəyərlərimizə məhəbbət hissləri təlqin edir, hərtərəfli yetişmələrinə çalışırıq.

Burada olarkən Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin direktoru Əsgər Qurbanovun da fikirlərini öyrəndik. O bildirdi ki, muxtar respublikamızda həyata keçirilən möhtəşəm təhsil siyasətinin parlaq təzahürlərindən biri də ümumtəhsil məktəblərində nümunəvi dərslərin təşkilidir. Bu həm məktəbimizin yetirmələri ilə əlaqələrin gücləndirilməsinə, həm də keçilən dərslərin daha effektli olmasına imkan verir.

Məktəbin X sinif şagirdi, nümunəvi dərsin iştirakçısı Gülay Mərsimli isə keçilən dərslə bağlı fikirlərini belə ifadə etdi: "Dərs çox maraqlı keçdi. Azərbaycan dili mənim çox sevdiyim fəndir. Eyni zamanda düşünürəm ki, bu fənni mənimsəmək hər kəs üçün zəruridir, çünki doğma dilimizi dərindən öyrənmək hamının borcudur. Dərsin mövzusu dilimizin saflığının qorunması haqqında idi. Dərsin digər müəllim tərəfindən tədris olunması bizim üçün ona görə maraqlıdır ki, hər müəllimin özünəməxsus pedaqoji bacarığı olur və dərslər fərqli metodla tədris edilir. Həm də düşünürsən ki, bizə bu dərsləri keçən alimlər də vaxtilə bu məktəbdə oxuyublar, ilk bilikləri buradakı sinif otaqlarında mənimsəyiblər. Onların bugünkü elmi uğurlarının təməli məhz bizim hazırda təhsil aldığımız bu məktəbdə qoyulub. Bu, bizi təhsil almağa daha da həvəsləndirir".

Digər şagird Vahid Mikayılzadə isə dedi ki, məktəbimizin yetirmələri olan müəllimlərin bizə dərs keçməsi hər birimizin ürəyincədir. Xüsusilə onlardan hər zaman bu fikri eşidirik ki, onlar oxuduqları dövrdə tədris şəraiti belə olmayıb, təhsildə böyük çətinliklər yaşayıblar. Buna baxmayaraq, yaxşı oxuyaraq müxtəlif sahələrdə öz fəaliyyətlərini davam etdiriblər. Bu baxımdan biz daha yaxşı oxumalı, yaradılmış bu şəraitdən layiqincə istifadə etməliyik.

Göründüyü kimi, elmi dərəcəsi olan müəllimlərin nümunəvi dərslərə cəlb olunması tədrisdə yeniliklərin tətbiqinə, müəllim və şagirdlərin qarşılıqlı fikir mübadiləsində birgə iştirakına, eyni zamanda fərqli dərs mühitinin yaradılmasına imkan verir ki, bu da təhsilimizin ümumi inkişafına öz müsbət təsirini göstərir.

Gülcamal TAHİROVA

Naxçıvanda növbəti göycə festivalı keçirildi

Ötən şənbə və bazar günləri doğma şəhərimizdə əsl bayram ab-havası hiss olunurdu, insanlar "Naxçıvanqala" Tarix-Memarlıq Kompleksinə tələsirdi. Artıq səhər saatlarından başlayaraq həmin ünvana, sözün həqiqi mənasında, insan kütləsi axışırdı. Biz də yolumuzu məhz bu qədim tarixi abidədən, festivala ev sahibliyi edən ünvandan salmışdıq. Yolboyu yanından ötüb keçdiyimiz insanların çöhrələrindəki təbəssümdən də duyulurdu ki, son illərdə belə festivalların sayının çoxalması doğma diyarımızın artan iqtisadi imkanını, biz sakinlərin sosial rifahının yaxşılaşmasını göstərir. Təsadüfi deyil ki, hər festival bir il öncəkinə nisbətən daha baxımlı, daha mütəşəkkil keçir. Bu, bir şəhər sakini kimi məni də çox sevindirir.

Naxçıvanqalaya çatana yaxın könülaçan mahnıların sədalarını eşidirik. Çox çəkmir, həmin ünvana yetişirik. Budur, qədim abidə qapılarını öz qonaqlarının üzünə tağbatağ açıb. İçəri daxil olarkən qələbəlik müşahidə edirik, böyükdən-kiçiyə hər kəsin sevincli olduğu elə ilk andan diqqətimizi çəkir. Öyrənirik ki, festivala muxtar respublikanın bölgələrindən göycə və bu meyvədən hazırlanan məhsullar çıxarılıb. Bölgələr üçün ayrılmış pavilyonlar sıra ilə düzülüb, bununla bağlı tanıtım lövhələri yerləşdirilib.

Festivalın açılış tədbirində çıxış edən AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov bildirir ki, Naxçıvanda göycənin iriliyinə, dadına və digər genetik xüsusiyyətlərinə görə 5-dən çox növünə rast gəlinir. Azərbaycan dilində yalnız Naxçıvan dialektinə məxsus "göycə" sözü göyyaşıl mənası ilə bərabər, həm də yeni, təzə mənasında işlənilir ki, bu da yazda ilk yetişən faraş meyvə kimi Naxçıvan göycəsinə şamil olunur. Alimin sözlərinə görə, Naxçıvanda, əsasən, Arazboyu maili düzənlik ərazilərdə göycə bağlarının salınması üçün əlverişli ekoloji şərait mövcuddur. Muxtar respublika rəhbərinin Naxçıvanda meyvəçiliyin inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğı nəticəsində göycə kimi brend məhsullarımızın istehsalının daha da artırılması, bu sahədə elmi tədqiqatların aparılması, bağçılıqda dünya standartlarının mənimsənilməsi üçün geniş imkanlar açılıb. Bu mənada, yazın ilk yeyilən meyvələrindən olan göycənin vətəni Naxçıvanda meyvəçiliyin inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər artıq bəhrəsini verməyə başlayıb.

Festivala gələnlərin təəssüratlarını öyrənmək üçün ilk olaraq Babək rayonu üçün ayrılmış pavilyona üz tuturuq. Rayonun Sirab kənd sakini Müslüm Xəlilov deyir ki, artıq üçüncü ildir, bu festivala məhsul çıxarır. Keçən il yaxşı qazanc əldə etdiyi üçün bu il daha çox göycə gətirib. Festivalın başlanmasından az bir vaxt keçməsinə baxmayaraq, gətirdiyi 300 kiloqram göycənin artıq xeyli hissəsini sata bilib.

Culfa rayonuna məxsus guşədə göycədən hazırlanan turşular, kompotlar düzülüb. Buradan həm göycənin özünü, həm də kompotunu alan Arifə Vəliyeva Bakıda yaşayan qohumlarına da həmin məhsullardan göndərəcəyini bildirir. Deyir ki, sözün düzü, festivalın keçiriləcəyi günü Bakıdakı qohumlarımız bizdən daha çox arzulayırlar. Artıq 2-ci ildir ki, onlara da göycə alıb yollayıram. Deyirlər Bakıda hər kəs Naxçıvan göycəsini bəyənir, digər bölgələrdə yetişən göycələrin dad-tamı onun yerini vermir. Bu sözlər bir naxçıvanlı kimi məni çox sevindirir. Bəli, Ulu Tanrı Naxçıvan torpağından öz səxavətini əsirgəməyib, doğma diyarımıza min bir nemət bəxş edib.

Culfa rayonunun Yaycı kənd sakini Qüdrət Xudaquliyev festivala 100 kiloqram göycə gətirib. Deyir ki, həyətinin bu məhsulunu hər il bazarda satırdı. Festivalın təşkili bu məhsulun satışına daha geniş şərait yaradıb. Burada muxtar respublikanın bütün bölgələri öz məhsulu ilə iştirak edir. Qüdrət də cari il bağında yaxşı məhsul yetişdirib və festivala çıxarıb.

Xarici ölkə vətəndaşları da bu məhsul bayramına böyük maraq göstərirdilər. Muxtar respublikaya dəfələrlə gəldiyini deyən Türkiyə vətəndaşı Metihan Ünal söhbət zamanı bildirdi ki, ailəsi ilə birlikdə hər il Naxçıvanda olmaqdan, qədim diyarın gəzməli-görməli yerlərinə tamaşa etməkdən böyük zövq alır. O qeyd etdi ki, Naxçıvan torpağında ləziz nemətlərin yetişdiyini yaxşı bilirik. Buradakı dost-tanışımızın sayəsində həmin meyvələrin dadına çox baxmışıq. Onu da deyim ki, burada yetişən göycənin bambaşqa dad-tamı var. Belə ləzzətli göycəni əvvəllər heç yerdə yeməmişəm. Festivalda olduğumuz zaman gördük ki, qədim diyarınızın hər bir guşəsindən buraya göycə çıxarıb sərfəli qiymətə satırlar. Satışa çıxarılan göycədən xüsusi zövqlə hazırlanmış kompot, göycə qurusu və turşuları diqqətimi çəkdi. Qiymətləri də ürəyimcə oldu.

Həmsöhbət olduğumuz Cənubi Koreya vətəndaşları Lee Jin, Seo Sumi və İrandan olan Samaya İrani də təşkil olunan festival barədə məmnunluq hissi ilə danışdılar.

Paytaxt Naxçıvan şəhərinin payvilyonu da diqqətimizdən yayınmır. Bu guşəni digərlərindən fərqləndirən cəhət məhsul çıxaranlar arasında təsərrüfat sahibləri ilə yanaşı, sahibkarlıq subyektinin də yer almasıdır. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə aid piştaxtalarda nümayiş etdirilən məhsullar çeşidli olması və xüsusi zövqlə qablaşdırılması ilə seçilir. Belə ki, burada məhsulun kompot və turşuları ilə yanaşı, alça və göycə quruları da sərfəli qiymətə təklif olunur.

Naxçıvan şəhərinin Tumbul kənd sakini Kamil Bayramovun çöhrəsində yaranan təbəssümü görüb ona yaxınlaşırıq. Deyir ki, bu gün Naxçıvanqala əkib-becərənlərin, məhsul bolluğu yaradanların ixtiyarına verilib. İndi bu məkanda haraya baxsan, alın təri axıdıb, zəhmət çəkən insanların yaratdığı məhsul bolluğunu görə bilərsən.

Öyrəndik ki, o, festivala gətirdiyi 120 kiloqram göycənin artıq çoxunu sata bilib. Yaradılan imkanlar onu da çox sevindirir və buna görə təşkilatçılara minnətdarlığını çatdırır.

Məlumat üçün bildirək ki, budəfəki festivala 186 fərdi təsərrüfatçı və "Naxçıvan məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən, ümumilikdə, 12 ton 700 kiloqram məhsul çıxarılmışdı. Festivalın sonunda "Ən yaxşı göycə" müsabiqəsinin qaliblərinə diplomlar təqdim edildi. Müsabiqənin nəticələrinə əsasən Naxçıvan şəhəri və Şərur rayonundan müvafiq olaraq Sabir Tağıyev və Aftandil İsmayılov festivalın qalibləri oldular. Babək və Ordubad rayonlarından Vahid Həsənov və Yaqut Babayeva ikinci, Culfa və Kəngərli rayonlarından Cabbar Nəcəfov və Şahmar Məmmədov isə üçüncü yerə layiq görüldülər. Onlarla söhbət zamanı festivalın təşkilinə görə minnətdarlıqlarını bildirdilər.

Muxtar respublikamız günü-gündən sürətlə inkişaf edir və bu tərəqqi biz vətəndaşların sosial rifahının yüksəlməsilə nəticələnir. Belə festivalların təşkil edilməsi təsərrüfat sahiblərinə ərsəyə gətirdikləri məhsulları sərfəli qiymətə satmaq üçün geniş imkanlar yaradır. Digər bir tərəfdən isə belə festivallar qədim diyarımızda yetişdirilən dadlı-tamlı məhsulların təbliği, tanıdılmasına töhfə verir.

Qeyd edək ki, Naxçıvan Dövlət Filarmoniyasının xoş ovqat bəxş edən rəngarəng konsert proqramı ilə yanaşı, göycədən hazırlanan müxtəlif fiqurlar, kompozisiyalar da festival iştirakçılarında böyük maraq yaratdı.

Nail ƏSGƏROV

Velosiped yarışı üzrə muxtar respublika turniri başa çatıb

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş velosiped yarışı üzrə yeniyetmə və gənclər arasında "Heydər Əliyev kuboku" uğrunda Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi turnirdə 80-ə yaxın idmançı mübarizə aparıb.

Turnirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov idmançıları salamlayaraq bildirib ki, ölkənin bütün regionlarında olduğu kimi, muxtar respublikamızda da idman dövlət qayğısı ilə əhatə edilib. Yeniyetmə və gənclərin bu sahəyə cəlbi istiqamətində mühüm addımlar atılır, yeni idman obyektləri, bazaları tikilərək istifadəyə verilir. Bu imkanlardan yararlanan gənclər idman sahəsində uğurlar qazanır, muxtar respublikanı Azərbaycan və dünya miqyasında layiqincə təmsil edirlər.

Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Hafiz Yaqubov çıxışında həyata keçirilən idman siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən söhbət açıb. Bildirilib ki, müstəqil Azərbaycan Respublikasının uğurlu idman siyasətinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlətin apardığı idman siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir.

Muxtar respublikanın təhsil naziri Məmməd Qəribov isə çıxışında vurğulayıb ki, diyarımızda idmanın inkişafına göstərilən dövlət qayğısı gündən-günə artır. Muxtar respublikamızda idmana göstərilən diqqət və qayğının nəticəsində hər il daha əhəmiyyətli uğurlar qazanılır. Bu gün Naxçıvanda fəaliyyət göstərən məktəblərin şagirdləri ölkə səviyyəli idman yarışlarında, turnirlərdə fərqlənirlər.

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən turnirə gəlincə, idmançılar 500 metrlik məsafədə yarışıblar. Reqlamentə əsasən təyin olunan məsafəni daha tez Şərur rayonunun idmançısı Emin Rəsulov qət edib. Kəngərli rayon məktəblisi Hüseyn Cəfərov ikinci, rayonun digər idmançısı Seymur Seyidov isə üçüncü olublar.

Komanda hesabında I yerə Kəngərli, II yerə isə Şərur rayonu layiq görülüb. Naxçıvan şəhərinin komandaları isə III yerdə qərarlaşıb. Qaliblərə Gənclər və İdman, Təhsil nazirliklərinin diplomları, Hava və Ekstremal İdman Növləri Federasiyasının kubok və hədiyyələri təqdim edilib.

Ceyhun MƏMMƏDOV

I və IV ixtisas qrupları üzrə qəbul imtahanı olub

Dövlət İmtahan Mərkəzi mayın 20-də 2018-2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə qəbul olmaq istəyən abituriyentlərin qəbul imtahanını keçirib.

Respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 62 binada aparılan imtahanların idarə olunmasına 229 imtahan rəhbəri və orta ümumtəhsil müəssisələrindən 2603 nəzarətçi-müəllim cəlb edilib. Abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb, binaların girişində təhlükəsizliyin və buraxılış rejiminin operativliyinin təmin edilməsi üçün "stasionar metalaxtaran aparat"lar quraşdırılıb.

Məlumat üçün bildirək ki, imtahanda 33 min 139 abituriyent iştirak edib. Onlardan 28 min 55 abituriyent I, 5084 abituriyent isə IV qrup üzrə imtahan verib. Abituriyentlərin 30 min 356 nəfəri Azərbaycan bölməsinin, 2783 nəfəri isə rus bölməsinin məzunlarıdır. Onlardan 20 min 108 nəfəri oğlan, 13 min 31-i qızdır.

İmtahan bütün binalarda eyni vaxtda – saat 11^{00}-da başlayıb və 3 saat davam edib.

Naxçıvan şəhərində qəbul imtahanları 7 və 14 nömrəli tam orta məktəblərdə olub. İmtahan üçün 975 nəfər qeydiyyatdan keçib. İmtahana 92 nəzarətçi, 7 imtahan rəhbəri cəlb olunub, bir gün əvvəl onlar üçün seminar-treninqlər təşkil edilib.

İmtahan başa çatdıqdan dərhal sonra müstəqil ekspertlər tərəfindən test suallarının ekspertizası aparılıb. Həmin gün "Space" telekanalında canlı yayımlanan "Abituriyent" verilişində Dövlət İmtahan Mərkəzinin məsul əməkdaşları və ekspertlər tərəfindən imtahana salınmış sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib. Sualların düzgün cavabları həm də Dövlət İmtahan Mərkəzinin internet saytında və "Facebook" səhifəsində yerləşdirilib.

Nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan, imtahandan 3-4 gün sonra Dövlət İmtahan Mərkəzinin internet saytında *(www.dim.gov.az)* yerləşdiriləcək.

Məlumat üçün bildirək ki, mayın 13-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərin II və III ixtisas qrupları üzrə də qəbul imtahanı keçirilib. Naxçıvan şəhərindəki 1, 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanda 1768 nəfər iştirak edib, 157 nəzarətçi, 12 imtahan rəhbərindən 6 imtahan rəhbəri və nəzarətçi regional bölmənin bazasından olub.

Güntac ŞAHMƏMMƏDLİ

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 376